M ə c n u n – Sindirdi çərx zülm ilə balu pərim, haray!
Döndərdi tez xəzanə fələk güllərim, haray!
Ey ruzigar, neyləmisəm, bilmirəm sən
Ümmanə döndü qanilə çesmi-tərim, haray!

Z e y d – Ey şiyfteyi-şikəstətale!
Əfsus ki, səyin oldu zaye!
Leyli sənə verdi zindəgani,
Sən ol baqi, o oldu fani!
Sən sədqəsi olduğun pərivəş,
Sədqə sənə oldu, ey bəlakeş!
Əzmi-ruhi-cənnət etdi ol hur,
Firdovs məqamin etdi məmur.

M ə c n u n – Netdim sənə, qəsdi-canım etdin!
Qəsdi-dili-natəvanım etdin!
Qıydın məni-zarü natəvanə,
Vurdun sitəm atəsini canə!
Əylət məni yar olan diyarə,
Şəm eylə məni məzari-yarə!

**Largo**



Leylinin məzarı üstə. "**Tərkib**" çalınır.

M ə c n u n – Aşiq odur kim, qılır canın fəda cananına,
Meyli-canan etməsin hər kim ki, qıymaz canına.
Canını cananə verməkdir kəmalı aşiqin,
Verməyən can, etiraf etmək gərək nöqsanına.

Canını təslim edir.

Ərəblər səhnəyə daxil olub oxuyurlar.

# 27. SON XOR

Ərəblər səhnəyə daxil olub oxuyurlar.









S.
-du be - lə za - ye.
A.
-du be - lə za - ye.
T.
-du be - lə za - ye.
214
S.
A - hi eş - qi, eş - qi eş - qi, bə - la -
A.
A - hi eş - qi, eş - qi eş - qi, bə - la -
T.
A - hi eş - qi, eş - qi eş - qi, bə - la -
214


S.
dır, bə - la - dır, A -
A.
dır, bə - la - dır, A -
T.
dır, bə - la - dır, A -
215
S.
şiq - tək e - dən dər - də müb - tə - la -
A.
şiq - tək e - dən dər - də müb - tə - la -
T.
şiq - tək e - dən dər - də müb - tə - la -
215




FİNAL



# ƏLAVƏ
## 28. MƏCNUNUN ATASININ ARİYASI

**Allegro moderato**




ad libitum
Ey bül - bü - lü bu - si - ta -
-ni bi - dad, bi -
dad, bi - dad, bi -




a tempo
dad.
a tempo
mp
meno mosso
Ha - li
meno mosso


di - li - ni mə - nə bə - yan
et.
Əs - ra - ri nə - ha - ni - yi ə - yan et.




Kim al - dı ə - lin - dən
ix - tiya - rin. Kim ey - lə - di
ti - rə ruz - ga -


- rin?
Nə
sey - ri-də-sən
sə -nə
tə - ləb
nə?




Bu na - le - yi
a - hi-nə
sə - bəb nə?
Dər - ya
da i -



sə sə - nə dü - ri
mp
kam.
energico sempre
Sən söy -






- lə bən ey - li - yim sə - rən -
- cam a -
sə - rən - cam a - sə - rən -


- cam, sə - rən -
- cam a sə - rən - cam!




Oğ - lum!

# LEYLİ və MƏCNUN

Libretto

İŞTİRAK EDƏNLƏR:

Qeys (Məcnun)
Leyli
Qeysin atası
Qeysin anası
Leylinin atası
Leylinin anası
İbni Səlam
Novfəl
Zeyd
1-ci ərəb
2-ci ərəb
Elçilər, qasidlər, qonaqlar, məktəbli qızlar və oğlanlar

## BİRİNCİ PƏRDƏ

Vaqe olur məktəbdən kənarə bir çəməndə. Məcnun bir kənarda durub, Leylinin yolunu gözləyir. Pərdədən qabaq musiqi çalınır, xor və cəmi əhli-məclis "Şəbi-hicran" havası oxuyurlar.

(M u s i q i)

H a m ı (*xor*)

Şəbi-hicran yanar canım, (*2 dəfə*)
Tökər qan çeşmi-giryanım, (*2 dəfə*)
Oyadar xalqı əfqanım, (*1 dəfə*)
Qara bəxtim oyanmazmı?! (*2 dəfə*)

(M u s i q i)

Güli-rüxsarına qarşu (*2 dəfə*)
Gözümdən qanlı axar su, (*2 dəfə*)
Həbibim, fəsli-güldür bu, (*1 dəfə*)
Axar sular bulanmazmı?! (*2 dəfə*)

P Ə R D Ə

(Hamı dağılır, Məcnun qalır.)

(M u s i q i: "Mahur-hindi").

M ə c n u n

Yandı canım hicr ilə, vəsli-rüxi-yar istərəm,
Dərdməndi-firqətəm, dərmani-didar istərəm.
Bülbüli-zarəm, deyil bihudə əfqan etdiyim,
Qalmışam nalan qəfəs qeydində, gülzar istərəm.

L e y l i (*gəlir, "Mahur-hindi" üstə*)

Eşq daminə giriftar olalı zar olubam,
Nə bəladır ki, ona böylə giriftar olubam.
Qüdrətim yox ki, qılam kimsəyə şərhi-qəmi-dil,
Öylə kim, arizeyi-hicr ilə bimar olubam.

(Musiqi "Şikəsteyi-fars" çalır, Məcnun Leyliyə yavuqlaşıb oxuyur.)

M ə c n u n

Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,
Sayə tək bir yerdə durmağa qərarım qalmadı.
Rahi-eşq içrə mənə ancaq fəna məqsud idi,
Şükr kim, məqsudə yetdim, intizarım qalmadı.

L e y l i

Dili-zarimdə nə kim, var bilirsən, bilirəm.
Yar, hali-dilimi zar bilirsən, bilirəm.

Mən, nə hacət ki, qılım şərh sənə hali-dilim,
Dili-zarimdə nə kim, var bilirsən, bilirəm.

(M u s i q i: təsnif)

L e y l i və M ə c n u n (*bir yerdə*)

Ah eylədiyim sərvi-xuramanın üçündür, (*2 dəfə*)
Qan ağladığım qönçeyi-xəndanın üçündür. (*2 dəfə*)
Sərgəştəliyim kakili-müjganın ucundan, (*1 dəfə*)
Aşüftəliyim zülfi-pərişanın üçündür. (*1 dəfə*)

(M u s i q i: "Segah")

M ə c n u n

Payibənd oldum səri-zülfi-pərişanın görüb,
Nitqdən düşdüm ləbi-ləli-dirəxşanın görüb.
Oda yandım şəmvəş canım baxıb rüxsarına,
Çərxə çəkdim dudi-dil sərvi-xuramanın görüb.

L e y l i

Könlüm açılır zülfi-pərişanını görcək,
Nitqim tutulur qönçeyi-xəndanını görcək.
Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navəki-müjganını görcək.

(M u s i q i: "Segah")

M ə c n u n

Qəddin həlakiyəm, düşə bilməm əyaqinə,
Bir eşqə düşmüşəm ki, bulunmaz nəhayəti.
Bildim təriqi-eşq xətərnakdır, vəli
Mən dönməzəm bu yoldan, ölüm olsa qayəti.

L e y l i

Ey hər təkəllümüm xəti-səbzin hekayəti,
Virdim həmişə məshəfi-rüxsarın ayəti.
Mən kim, səni görəndə gedir əldən ixtiyar,
Gəlməz bəyanə möhnəti-eşqin şikayəti.

(Bu halda qızlar Leyliyə tərəf gəlib oxuyurlar.)

(M u s i q i)

Q ı z l a r

Nagah olur, Leyli, atan agah (*2 dəfə*)
Kim, qeyrilə aşina olubsan, ay Leyli! (*2 dəfə*)



(M u s i q i)

Layiq deyil, Leyli, sənə bu üslub, (*2 dəfə*)
Yaxşı nəzər eyləsən yamandır, Leyli! (*2 dəfə*)

(M u s i q i)

(Leylini aparırlar, Məcnun tək qalıb, bikef oturur. Bu halda Məcnunun atası gəlir.)

M ə c n u n u n a t a s ı ("*Çahargah*" *üstə*)

Ey bülbüli-bustani-bidad!
Hali-dilini mənə bəyan et,
Əsrari-nəhanini əyan et.
Kim aldı əlindən ixtiyarın?
Kim eylədi tirə ruzigarın?
Nə seyrdəsən, sənə tələb nə?
Bu naleyi-zarinə səbəb nə?
Dəryadə isə sənə düri-kam,
Sən söylə, mən eyləyim sərəncam.

(M u s i q i: "Çahargah")

M ə c n u n

Ey piri-şikəstə hali-naşad,
Tanrıyçün əlimdən eyləmə dad.
Demə ki, nədir bu macəralar,
Səndən mənə yetdi bu bəlalar.
Mən bilməz idim qəmi-cahanı,
Təşvişi-zəminü asimanı.
Bilməzlik ilə xoş idi halım,
Nə hüsnü, nə eşq idi xəyalım.

(Məcnunun anası gəlir və "Müxalif" üstə oxuyur.)

M ə c n u n u n a n a s ı

Ey rahəti-canü nuri-didə!
Fərzəndi-yeganeyi-güzidə!
Sən sərvsən, olmagil giranbar!
Azad ola gör, nə kim giriftar!
Sən ləlsən, olmagil səbüksəng,
Döndərmə günəş görüb rəvan rəng!
Bizdən bu nəsihəti qəbul et!
Hər ləhzə bizi, yetər, məlul et!

M ə c n u n

Ey ruhi-rəvanım ata, ana!
Kami-dilü canım ata, ana!
Bildim bu işi özümə layiq,
Leyli sənəmə mən oldum aşiq.

Sonra olubam bu işdən agah,
Amma nə deyim, nə söyləyim? Ah!
Yoxdur bu işimdə ixtiyarım,

("Çahargah"a enir.)

Əql oldu zəifü, eşq ğalib,
Xatir nigəran, nigari cazib.

A t a s ı (*"Çahargah" üstə*)

Can verme ğəmi-eşqə ki, eşq afəti-candır.
Eşq afəti-can olduğu məşhuri-cahandır.
Yaxşı görünür surəti məhvəşlərin, əmma
Yaxşı nəzər etdikdə sərəncamı yamandır.
Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir işi ahü fəğandır.

(M u s i q i: təsnif)

A t a s ı

Durun gedək evimizə! (*2 dəfə*)

A n a s ı

Qeysim, Qeysim!.. (*1 dəfə*)

M ə c n u n

Ata, ana, aşqin həvası
Məni məcnun edəcəkdir,
Məni məcnun edəcəkdir!..

(M u s i q i)

A t a s ı

Mən sənə Leylini gedib, alıb istərəm. (*2 dəfə*)

A n a s ı

Oğlum, oğlum!.. (*1 dəfə*)

M ə c n u n

Ata, ana, eşqin həvası
Məni məcnun edəcəkdir,
Məni məcnun edəcəkdir.

(M u s i q i)

P Ə R D Ə



## İKİNCİ PƏRDƏ

Vaqe olur Leylinin evində. Leyli və anası oturubdurlar. Pərdə qalxmazdan qabaq musiqi ("Simayi-şəms") çalınır; pərdə qalxır, Leylinin anası oxuyur.

L e y l i n i n a n a s ı

Ey şux! Nədir bu göftügulər?
Qılmaq sənə tənə eybculər?

(M u s i q i)

Nəyçün özünə ziyan edirsən?
Yaxşı adını yaman edirsən?

(M u s i q i)

Derlər səni eşqə mübtəlasən,
Biganələr ilə aşinasən.

(M u s i q i)

L e y l i

Ey munisi-ruzigarım ana!
Dürci-düri-şahvarım ana!

(M u s i q i)

Sözlər dersən ki, bilməzəm mən,
Məzmununu fəhm qılmazam mən.

L e y l i n i n a n a s ı

Sən hardanü eşq zövqü hardan?
Sən hardanü dust zövqü hardan?

(M u s i q i)

Oğlan əcəb olmaz olsa aşiq,
Aşiqlik işi qıza nə layiq?

L e y l i

Dersən məşuqü eşqü aşiq,
Mən sadə ürək tifli-sadiq;
Bilməm nədir ol hədisə məzmun?
Söylə! Necə olmayım digərgun?

L e y l i n i n a n a s ı

Neylərsən əgər atan eşitsə,
Qəhr ilə sənə siyasət etsə?

(M u s i q i)

Minbə'd gəl eylə tərki-məktəb.
Bil əbcədini həmin cədü əb.

(M u s i q i)

Gərçi adın ola dildə məzkur,
Görmək səni ola ğeyri-məqdur.

L e y l i

Mən məktəbə rəyim ilə getməm,
Bir şüğli xilafi-rəyin etməm.
Billah, mənə həm bu idi məqsud,
Məktəbdə olurmu tifl xoşnud?
Artıq bu sözü mükərrər etmə,
Lütf eylə, məni mükəddər etmə!

(M u s i q i)

("Şur" çalınır. Qapı döyülür. Leyli anası ilə durub o biri qapıdan çıxırlar. Leylinin atası gəlib qapını açır. Məcnunun atası və bir neçə ərəb gəlirlər. Leylinin atası onlara oturmağı təklif edir. Məcnunun atası onlara müraciət edib oxuyur.)

M ə c n u n u n a t a s ı (*"Şur" üstə*)

Ey qədrlə qibleyi-qəbait!
Əslü nəsəbim sənə əyandır,
Hökmüm neçə min evə rəvandır.
Məşhuri-qəbailəm səxadə,
Mərufi-təvaifəm ətadə.
Nəxli-əməlim səmər veribdir,
İyzəd mənə bir gühər veribdir.
Hala diləröm bu türfə lölu,
Bir ləl ilə ola həmtərazu.
Lütf eylə, inayətü, kərəm qıl!
Ol ləl ilə dürrü möhtərəm qıl!

L e y l i n i n a t a s ı (*"Şur" üstə*)

Ey qovm içində bir xirədmənd!
Mən kimi əsiri-dami-fərzənd!
Müşgülcə xitabdır xitabın,
Bilməm necə verəyim cavabın.
Qürbün, bilirəm, mənə şərəfdir,
Əmma xələfin əcəb xələfdir.
"Məcnun" – deyə tən edir xəlayiq,
Məcnuna mənim qızım nə layiq?!

(M u s i q i)



X o r – ə r ə b l ə r (*təsnif üstə*)

Ey ərəb, bizləri məyus etmə!
Vergilən Leylini Qeysə getsin.

Qeys

Maldan da, candan da, puldan da
Maldan da, candan da, puldan da,
Hamıdan artıqdır, bil bunu, ərəb!
Bil bunu, ərəb!

(M u s i q i)

L e y l i n i n a t a s ı

Xeyr, verməröm, verməröm, verməröm!
Verməröm, verməröm, verməröm!
Leyliyə yaraşmaz divanə oğlan,
Divanə oğlan!

(M u s i q i: "Kürd-şahnaz")

Ərəblər əl ilə, göz ilə Leylinin atasını rağib etmək istəyirlər.

M ə c n u n

Ya rəbb! Bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.
Az eyləmə inayətini əhli-dərddən,
Yəni ki, çox bəlalara qıl mübtəla məni.

(Qonaqlar gedirlər, musiqi yenə "Şur" çalır.)

L e y l i n i n a t a s ı (*təkcə*)

Nəsl ilə olur bəqayi-insan,
Nəzmi bəşərü nizami-dövran.
Can cövhərinə bədəldir övlad;
Övlad qoyan, qoyur həmin ad.
Xoş ol ki, xələfdən ola xoşdil,
Dünyada bir oğlu ola qabil.
Ah, olsa əgər səfihü sərkəş,
Ətvari kərihü xülqi naxoş,
Təşni oxuna olub nişanə,
Bizar ola ondan ata-anə.

(Qapı döyülür, Leylinin atası qapını açır.
İbn-Səlam ilə bir neçə ərəb daxil olub oxuyurlar.)

(M u s i q i)

Ərəblər

Ali-cahani bilib, gəlmişik ziyarətə,
Bir əmri edib izhar, əncamın alaq səndən,
Əncamın alaq səndən.

(Musiqi)

Leylinin atası

Xoş gəldiz, səfa gəldiz, məni siz uca etdiz,
Hər əmrə varam hazır, mümkündürsə əlaci,
Mümkündürsə əlaci.

(Musiqi)

Ərəblər

Bu oğlan İbn-Səlam, hər cahi-cəlali çox.
Əmma ki, onun, heyfa, həmdərdi-həmsirri yox,
Həmdərdi-həmsirri yox.

(Musiqi)

Ərəblər

Bilmişdir sənin vardır ismətli gözəl qızın,
İstər kim, ola sənlə həm qom, həm dost,
həm aşina.
Həm qom, həm dost, həm aşina.

(Musiqi)

Leylinin atası

Ey tayifeyi-nəcib, mən bu təklifə şadam.
Xudavəndin əmrilə verdim Leylini getsin,
İbn-Səlamın olsun.

Ərəblər (*İbn-Səlama*)

İbn-Səlam, ilahi
Səni xoşbəxt eyləsin!

(Musiqi)

İbn-Səlam

İmdi sən mənə oldun ata-anadan əziz,
Allah qoysa, mən də ollam sənə oğul yerində,
Sənə oğul yerində.



Ərəblər

İndi biz gedək toy üçün tədarükə başlayaq,
Tədarükə başlayaq.

(Hamı gedir. Leyli çıxıb "Qatar" oxuyur.)

Leyli

Xilafi-rəyim ilə, ey fələk, mədar etdin,
Məni gül istər ikən mübtəlayi-xar etdin...

PƏRDƏ

## ÜÇÜNCÜ PƏRDƏ

Vaqe olur bir meşədə, sübh açılmağa yavuqdur; səhnədə əvvəl heç kəs yoxdur; ətrafda bir dağ görünür, musiqi "Bayatı-Şiraz" başlayır; bir qədər sonra Məcnun dəli sifətində çıxır, başıaçıq, ayaqyalın və s.

(Oxuyur.)

(Musiqi)

Məcnun

Fəzayi-eşqi ta gördüm, səlahi-əqldən durəm,
Məni rüsva görüb, eyb etmə, ey naseh ki, məzurəm.
Əgər çaki-giriban eyləsəm, mən etməyin, çün mən
Mətai-nəngdən arəm, libasi-ardən urəm.
Mənu səhrayi-vəhşət mənzil etməm afiyət güncün,
Əsiri-dami-zülmət olmazam, çün talibi-nurəm.
Bəlayi-eşqü dərdi-dust tərkin qılmazam, zahid,
Məni rəyimlə sanmın, eşq sultaninə məmurəm.

(Məcnun oxuduqca dağ tərəfdən əks-səda gəlir.)

(Musiqi: "Bayatı-kürd")

*(Məcnun dağa üz tutub oxuyur.)*

Ey guşənişini-pakdamən!
Suzi-cigərimdən oldun agah,
Əhsən-tü əhsən-tü, bərəkallah!
Sənsən mənə həmdəmü müvafiq,
Birdəm qoşalım sədа sədayə,
Gəl ağlayalım, bu macərayə.

(Musiqi)

Q ı z l a r *(pərdə dalından)*

Bu gələn yara bənzər,
Telləri qara bənzər.
Oğlan, oğlan, bir bəri bax, bəri bax, bəri bax!..
Qoşa xal var üzündə...
Allana-sallana telləri var,
Xırdaca-xırdaca gözləri var.
Gəl Leyli, bala, gəl, Leyli!
Gedək gəzək bu bağda.
Gül açılıb, bülbül oxur,
Gül açılıb, bülbül oxur,
Gül açılıb, bülbül oxur!..

(Məcnun Leylini və Leyli Məcnunu görüb, bir-birinin üstünə yüyürüb bərk qucaqlaşırlar. Bir-iki saniyə sonra işıq keçir, qaranlıqda qızlar Leylini aparırlar, Məcnun tək qalır.)

(M u s i q i: "Rast")

(Məcnunun atasının səsi gəlir və sonra özü də səhnəyə çıxır və Məcnunu tapır.)

M ə c n u n u n a t a s ı

Ey cövhəri-canımın həvası,
Ey dideyi-bəxtimin ziyası!
Səndən nə rəva bu macəralər,
Sərmayeyi-eyb olan sədalər.
Derdim olasan mənim pənahım.
Fəxrim, şərəfim, ümidgahım.
Vəhşilər ilə nədir bu birlik?
İnsan ilə xoş deyilmi dirlik.
Rəhm et məni-zarü namuradə,
Qoyma bu məşəqqətü bəladə.

M ə c n u n

Söylə görüm, ey mənə verən pənd,
Danayi-süxən və ru xirədmənd.
Kimsən və nədir bu göftügulər?
Bifaidə batil arizulər.
Get! Dərdimə sən dəva deyilsən,
Biganəsən, aşina deyilsən.
Mən böylə kəlamə tutmazam guş,
Leyli sözü söylə, yoxsa xamuş!

(Bu halda bir neçə ərəb gəlib keçərkən bu macəranı görüb, Məcnunun atasından soruşurlar.)

(M u s i q i: Təsnif)

Ə r ə b l ə r

Söylə bir görək, ərəb, bu cavan nədən xəstə, (*2 dəfə*)
Bəlkə bizdə bu dərdin davası tapıla kaş...



Davası tapıla kaş, davası tapıla kaş...
Ey, biz də dünya görmüş adamız, (*2 dəfə*)
Xəstələrə dava edəriz.
İnsan başına gələni bilmək gərək. (*2 dəfə*)

(M u s i q i)

M ə c n u n u n a t a s ı

Allahın bəndələri, bu mənim fərzəndimdir, (*2 dəfə*)
Eşqdir bunun dərdi, olub bir qıza aşiq,
Leyliyə budur aşiq! (*2 dəfə*)
Ey, hər təbibə getdim, söylədim,
Dərdi-eşqə əlac istədim.
Min cürə dəva verdilər, kar etmədi... (*2 dəfə*)

(M u s i q i)

Ə r ə b l ə r

Ey pir, bunun dərdinə əlac bircə şey var, (*2 dəfə*)
Kəbəyə aparasan, Həcəri görə bəlkə.
Həcəri görə bəlkə,
Dərdindən ola azad.
Ey, səcdə qılsın Kəbəyə oğlan, (*2 dəfə*)
Sən də üz tut dərgahi-ilahə,
Qılginən münacat, dilə bir əlac. (*2 dəfə*)

(M u s i q i: "Əraq")

M ə c n u n

Eşq dərdi, ey müalic, qabili-dərman deyil!
Cövhərindən eyləmək cismi cida asan deyil!
Dövr cövründən şikayət edənə aşiq demə,
Eşq məsti vaqifi-keyfiyyəti-dövran deyil!
Canı canan ittihadi fariq eylər cismdən,
Cismdən agah olan can vasili-canan deyil!

(M u s i q i: "Heyratı"; Nofəl qoşunu ilə gəlir; bunları görüb oxuyur.)

N o f ə l

Ey xəstə, nədir bu çəkdiyin zəhmətü rənc,
Viranədə zaye etdiyin dürü gənc?!
Vəhşi nə bilir sənin məqamın? (*2 dəfə*)
Hal əhlisən, istə, əhli-hali etsin əlac,
Hal əhlisən, istə, tapasan şəfa.

Ə r ə b l ə r h a m ı s ı

Bu oğlan aşiqdir.

(M u s i q i)

Leyli adlı bir gözələ.
Əmma bəxti yar olmaz,
Atası qızı verməz.
Bu da qızın eşqindən olmuş divanə, (*2 dəfə*)
Əl çəkib dünyadan, ata-anadan qaçıbdır.
Əl çəkib dünyadan, məcnun olubdur.

(M u s i q i)

N o f ə l

Ey cavan, bildim dərdini sənin, bəladır,
Əmma ümidini kəsmə, Allah kərimdir.
Mən cəhd eylərəm, Leylini sənə alaram,
Qızıl istəsələr, qızıl bəxş eylərəm.
Yoxsa qılıncımın zoru ilə alaram.

(M u s i q i)

(Nofəl kağız yazıb göndərir.)

M ə c n u n (*"Kabili" üstə*)

Şükr eylərəm, ey yeganeyi-əhd!
Tədbirimə çoxlar etdilər cəhd.
Səndə, bilirəm ki, lütf çoxdur,
Nə sud ki, məndə bəxt yoxdur.
Bəxtim, bilirəm, mənim yamandır,
Sud istədiyin mənə ziyandır.

Ə r ə b l ə r

Ey Nofəl, məlumdur, səndə şücaət çoxdur.
Əmma ki, Məcnunun bəxti, taleyi yoxdur.

M ə c n u n

Bəxtim, taleyim yoxdur, bəxtim, taleyim yoxdur,
Mən ki, məcnunəm.

Ə r ə b l ə r

Məcnunin də Allahdan başqa bir əlacı yox,
Ona əlac olsa Allahdan olar.

(M u s i q i)

N o f ə l

Qəm çəkmə ki, mən olunca sənə qəmxar,
Yarın, bil ki, ənqərib olur sana yar.



Ümidvar ol!
Sən cəhd elə ki, yar ola sənə mayil,
Çün yar olsa mayil, kar olur asan.

(M u s i q i)

(Bu vaxt Leylinin atası on nəfər yaraqlı ərəblə gəlir. Nofəl onlara deyir:)

N o f ə l

Ey qom büləndpayə,
Biganə olmuş aşinayə.
Leylini verin Məcnunə,
Bu işə siz razı olsanız,
Sizi eylərəm dövlətmənd.
Simüzər verərəm,
Əgər sözlərimi yerə salsanız, eylərəm
Sizi şəmşirin zərbinə qurban.

(M u s i q i)

L e y l i n i n a t a s ı

Ey hünərvər, bu cünundur,
Bizdə cününə qız yoxdur.
Lazım deyil bizə zərin,
Əl çəkirik zərindən.
Qorxmuruq şəmşirindən.
Hər nə bilsən et!
Laf ilə qılıncdan gəl urma qıl dəm
Kim, vardır qılınclar bizlərdə də həm.

(M u s i q i)

(Qılınclarını çəkib davaya başlayırlar. Məcnun əlinə bir xəncər alıb Nofəlin qoşunlarını qırmağa başlayır. Nofəl onu kənara çəkib deyir:)

N o f ə l

Nə iş görürsən, divanə!
Düşmənə kömək edirsən.
Biz ölürük sənin üçün,
Sən qırırsan bizi neçün?
Xəncəri tulla,
Mən cəhd edirəm ki, düşməni məğlub eyləyim
Kim, Leylini alıb sənə verdirim.

(M u s i q i)

M ə c n u n (*"Kabili" üstə*)

Ey Nofəl, mən fədayi-yarəm,
Vəslinə onun ümidvarəm.

Yarım tərəfində ola nüsrət,
Bəlkə ki, bulam vüsalə fürsət.
Canım ola dust dilpəziri,
Ya köştəsi ola, ya əsiri.

(Bu vaxt Leylinin atası ilə İbn-Səlam gəlir;
qılınclarını salıb, Nofələ müraciətlə oxuyurlar:)

L e y l i n i n a t a s ı

Ey hünərvər, səndə zəfər.
Bizə aman ver, nahaq bu xəlqi
Qırma, qırma, qırma, qırma!
Leylini vermişəm özgə ərə,
Leyli verilib İbn-Səlamə.
İndi razı olma iki əri olsun yarın,
Namusa toxunan iş deyilmi bu?

(M u s i q i)

N o f ə l (*əl verir*)

Doğrudur, doğrudur, doğrudur.

(Qoşuna)

Ey ləşkər! Çəkilin davadan
Dəxi bəsdir cəng;
Əvvəldən bilsəydim tökməzdim bu qədər qan,
Məcnunə Allahdan əql istərdim.

(M u s i q i)

(Hamı bir yerdə əllərini yuxarı qaldırır.)

H a m ı

Bar, ilahi, əfv et
Bu günahı biz bəndədən.
Bu Məcnuni eylə
Aşiqlikdən xilas.

(M u s i q i)

P Ə R D Ə



## DÖRDÜNCÜ PƏRDƏ

Vaqe olur İbn-Səlamın evində. Evin bir tərəfi küçədir; Məcnun Zeyd ilə küçədə durublar.
Otaqda toy məclisidir.

Musiqidən sonra pərdə qalxır.

Z e y d (*rast üstə*)

Dün əxtəri-bəxtin oldu tirə,
Leyli sitəm etdi sən fəqirə.
O, İbn-Səlamə ruzi oldu,
Ruzi sənə dərdi-süzi oldu.
Yar özgəyə oldu şəmi məhfil,
Qaldı sənə tabi-ataşi-dil.

Q o n a q l a r (*otaqda*)

Xoşbəxt ol, İbn-Səlam!
Alasan kamü məram.
Keçirəsən xoş günlər,
Bar verə muradın.
Ola bir övladın.
Mübarək olsun toyun.

(Oyundan sonra durub gedirlər, bu halda Məcnun "Şüştər" oxuyur.)

M ə c n u n

Qeyr ilə, yara, nədir seyri-gülüstan etdiyin?
Bəzm urub, xəlvət qılıb, yüz lütfü ehsan etdiyin?
Əhd bünyadın mürüvvətdirmi viran etdiyin?!
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

(Leyli içəri daxil olur, Məcnunun səsini eşidir;
İbn-Səlam gəlib təəccüblə Leyliyə baxır və oxuyur.)

(M u s i q i)

İ b n-S ə l a m

Leyli, Leyli, bu odlu səs Məcnunundur,
Mən tanıyıram onu.
Məgər, Leyli, bəs bu cünun əl çəkməyibdirmi
səndən indi də?
Leyli, söylə, doğrusun söylə,
Səndəmi ona aşiqsən?
İstərsənmi Məcnunun ola aşiqin?

(M u s i q i)

Leyli

İbn-Səlam, qoy doğrusun mən söyləyim,
mən Məcnuna aşiqəm.
Uşaqlıqdan bir-birimizi sevməyə
söz vermişik əhd ilə.
İndi söylə, sən özün söylə, sındıra billəm
əhdimi mən?
Məhəbbətin odunu mən söndürə billəmmi,
qəlbimi yandırar.

(Musiqi)

Leyli

Bir neçə vaxt sən səbr elə, qoy soyusun eşqin odu.

İbn-Səlam (*kənara*)

Yəqin Leyli məni sınamaq istəyir,
Mən fikrini duymuşam.

Leyli

İbn-Səlam, sən səbr elə, qoy bəlkə Məcnun da
əl çəkə.

İbn-Səlam

Leyli, mən səbrə hazıram.
Sənin cəfanı mən çəkməyə hazıram.

(*Gedir.*)

(Musiqi)

Məcnun

Cürmümüz noldu ki, bizdən eylədin bizarlıq?
Biz qəmin çəkdik, sən etdin özgəyə qəmxarlıq.
Sizdə adət bumudur? Böylə olurmu yarlıq?
Hanı, ey zalım, bizimlə əhdü peyman etdiyin?!

(Bu halda Leyli taxt üstə ağlayır. Zeyd və bir neçə nəfər ərəb gəlib Məcnuna deyirlər:)

Zeyd və ərəblər

Məcnun, Məcnun, dur gedək,
Bu rəqibin evidir.
Sənə tənə eylərlər.
Bədnam etmə özünü.



Leyli

Allah, bu nə sitəm, bu nə zülm?!
Bu nə sitəm, bu nə zülm?!
Eşqin oduna yandım,
Hicran sitəmin qandım.

Məcnun

Bəs sənin vəfan bu imiş, Leyli, bu imiş, Leyli?
Bivəfa da yar olarmı?! (*2 dəfə*)

Zeyd və ərəblər

Məcnun, dur gedək evinə,
Yazığın gəlsin atana.
Rəhm eylə bir dəm anana.
Leylini səndən ayırdı mürüvvətsiz fələk,
Sən də eşqin havasını başından eylə cida.

(Məcnun ərəblərlə gedir.)

PƏRDƏ

## BEŞİNCİ PƏRDƏ

Vaqe olur İbn-Səlamın evinin qabağında. İbn-Səlam qapı ağzında oturur. Musiqi "Osmanlı" havasını çalır. Pərdə qalxdıqda Leyli içəridən çıxıb gəlir və İbn-Səlamın qabağında oturur. Leyli xəstədir.

İbn-Səlam (*"Osmanlı" üstə*)

Pərişan-halın oldum, sormadın hali-pərişanım,
Qəmindən dərdə düşdüm, qılmadın tədbiri-dərmanım.
Nə dersən, ruzigarım böyləmi keçsin, gözəl yarım!
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

(Musiqi)

Əsiri-dami-eşqin olalı səndən vəfa görməm,
Səni hər anda görsəm, əhli-dərdə aşina görməm.
Vəfayi-aşinalıq rəsmini sənə rəva görməm,
Gözüm, canım, əfəndim, sevdiyim, dövlətli sultanım!

Leyli (*təsnif üstə*)

Ey mənə qəmxar olan, görmürsənmi əhvalımı?
Dərdə düşmüş cismimi, oda alışmış canımı?
Daim pərişan halımı.

(Musiqi)

İ b n-S ə l a m

Ey gözüm, guş etmədin pəndü nəsihətimi sən,
Bir cünunə mehrini saldın, etdin özünü sən,
Xəstəvü naçar olmusan.

L e y l i

Söylə bir, İbn-Səlam, gər aşiqi həqiqisən,
Eşq odu düşsə əgər, dəfi onun qabildirmi?
Söndürməsi mümkündürmü?

(Leylí və İbn-Səlam evə daxil olurlar. Zeyd Məcnunu zəncirə bağlı Leylinin qapısına gətirir.)

M ə c n u n

Leyli, ey bivəfa Leyli!
Özgəyə saldın sən meyli!
Elədin məni divanə,
Sözümü saldın hər yanə, ey zalım! (*2 dəfə*)

(M u s i q i)

Yaxıldı canım eşqindən,
Titrədi dağlar ahimdən.
Niyə sən bəs, ey bivəfa!
Belə üz döndərdin məndən, ey zalım! (*2 dəfə*)

(M u s i q i)

Nə qədər təndə var canım,
Yanaram ataşi-eşqə,
Çəkərəm fəqan-ahim,
Yandıraram dağı, daşı, ey zalım! (*2 dəfə*)

(Bu halda Leyli evdən çıxıb, oxuya-oxuya yüyürür Məcnunun üstə.)

L e y l i

Gəl, ey Məcnun, Leylinəm, al canımı!
Vəfasız olmuşam, billah, tök qanımı!

(Məcnun Leylini görcək zəncirini qırıb, geri çəkilib oxuyur.)

M ə c n u n

Sən Leyli deyilsən, ey pərizad!
Qaç, qəlbimi xunla etmə bərbad.
Aldatma məni, cünun deyib qaç,
Qaç, eyləmə gül üzünlə Leylini yad.

(Qaçır. Zeyd də onun dalınca gedir, Leyli tək qalıb oxuyur.)



L e y l i ("*Segah*" *üstə*)

Xoşdur nə qədr eyləsə yarım cəfa mənə,
Ta kim, rəqib söyləməsin bivəfa mənə.
Sənsiz diyari-hicrdə sərgəştə qalmışam,
Vəslin ümidi, billah, olur rəhnüma mənə.
Rəna qəsəd qalıbdı belə xürdi-xabidən
Xuni-dilim olubdur, əzizim, qəza mənə.
Qan bəstərində qoyma məni zar-mübtəla,
Ver şərbəti-vüsaldən, ey meh, şəfa mənə.

(Leyli yerə yıxılıb ölür. Bu halda xor daxil olub oxuyur.)

(M u s i q i)

X o r

Rəhmət olsun sənə, Leyli! (*2 dəfə*)
Bu dünyada kam almadın,
O dünyada kam alarsan, ey aşiq! (*2 dəfə*)

P Ə R D Ə

## ALTINCI PƏRDƏ

Vaqe olur qəbiristanda. Bir tərəfdə Leylinin qəbri görünür.

(M u s i q i)

M ə c n u n ("*Bayatı-kürd*" *üstə*)

Sındırdı çərx zülm ilə balü pərim, haray!
Döndərdi tez xəzanə fələk güllərim, haray!
Ey ruzigar, nə eyləmişəm bilməm sənə,
Ümmanə döndü qan ilə çeşmü tərim, haray!

(Bu halda Zeyd bir ərəblə daxil olur.)

Z e y d

Ey şifteyi-şikəstətale!
Əfsus ki, səyin oldu zaye!
Leyli sənə verdi zindəgani,
Sən ol baqi, ol oldu fani!
Sən sədqəsi olduğun pərivəş
Sədqə sənə oldu, ey bəlakəş!
Əzmi-rəhi-cənnət etdi ol hur,
Firdovs məqamın etdi məmur.

M ə c n u n

Netdim sənə, qəsdi-canım etdin?!
Qəsdi-dili-natəvanım etdin?!
Eylət məni yar olan diyarə,
Şəm eylə məni məzari-yarə!

(Məcnunu Leylinin qəbri üstünə aparırlar. Məcnun qəbri qucaqlayıb oxuyur.)

M ə c n u n (*"Bayatı-qacar" üstə*)

Aşiq oldur kim, qılır canın fəda cananına,
Meyli-canan etməsin hər kim ki, qıymaz canına.
Canını canana verməkdir kəmali aşiqin,
Verməyən can etiraf etmək gərək nöqsanına.

(Deyir, ölür. Bu halda ərəblər yığılıb oxuyurlar.)

(M u s i q i)

X o r  v ə  ə r ə b l ə r

Ey bikəs, biçarə qalan aşiq, sadiq Məcnun! (*2 dəfə*)
Səd heyf ki, ahu qəmin oldu belə zaye!
Axı eşq, eşq, eşq bəladır, bəladır,
Aşiqlik edən dərdə mübtəladır!

(M u s i q i)

Olmadın nail Leyliyə sən bəs bu dünyada,
Məcnun! (*2 dəfə*)
Bari o dünyada olasan vəslinə nail.
Axı eşq, eşq, eşq bəladır, bəladır,
Aşiqlik edən dərdə mübtəladır! (*2 dəfə*)

P Ə R D Ə



# MÜNDƏRİCAT


**Leyli və Məcnun (*klavir*)**

Müqəddimə ........ 5

BİRİNCİ PƏRDƏ

1. Xor "Şəbi-hicran" ........ 12

1- ci şəkil

2. "Mahur-hindi" ........ 20
3. Leyli və Məcnun dueti ........ 26
4. Qızlar və oğlanların xoru ........ 34
5. Trio ........ 42

İKİNCİ PƏRDƏ

2-ci şəkil

6. Qızların xoru ........ 48
7. Xor "Vermə, vermə" ........ 57
8. Məcnunun elçilərinin xoru ........ 61
9. İbn-Səlamın elçilərinin xoru ........ 69

ÜÇÜNCÜ PƏRDƏ

3-cü şəkil

10. Giriş ........ 82
11. Qonaqların xoru ........ 87
12. Rəqs ........ 89
13. Qonaqların xoru ........ 91
14. Leyli və İbn-Səlamın dueti ........ 94
15. Xor "Məcnun, Məcnun" ........ 103

DÖRDÜNCÜ PƏRDƏ

4-cü şəkil

16. Giriş ........ 109
17. Qızların xoru ........ 113
18. Xor "Söylə bir görək" ........ 120
19. Nofəlin xor ilə səhnəsi ........ 133
20. Xor ........ 144
21. Qasidlərin xoru ........ 148
22. Döyüş səhnəsi ........ 157

BEŞİNCİ PƏRDƏ

5-ci şəkil

23. Arazbarı ........ 168
24. Leyli və İbn-Səlamın dueti ........ 175
25. Məcnunun şikayəti ........ 182

6-cı şəkil

26. Giriş ........ 189
27. Son xor ........ 192
28. Məcnunun atasının ariyası ........ 197

**Leyli və Məcnun (*libretto*)** ........ 209

ÜZEYİR HACIBƏYLİ

# LEYLİ
# və
# MƏCNUN

"Şərq-Qərb"
Bakı
2008

Buraxılışa məsul: *Əziz Güləliyev*

Kompyuter səhifələyicisi: *Samir Süleymanov*

Korrektor: *Zahid Məmmədov*

Çapa imzalanmışdır 02.09.2008. Formatı 60×84 $^1/_8$. Fiziki çap vərəqi 29.
Ofset çap üsulu. Tirajı 1000. Sifariş 115.

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
Bakı şəhəri, Aşıq Ələsgər küçəsi, 17.